*UOT 371*

***İsmət Məmməd qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0001-3546-867X*
https://doi.org/10.69682/azrt.2024.91(2).115-118

***Türkan Mübariz qızı Süleymanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MONİTORİNQ VƏ ONUN TƏDRİS PROSESİNİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINDA ROLU

***Исмет Мамед гызы Мамедова***
*доцент*
*Азербайджанского государственнного педагогического университета,*
*доктор философии по педагогике*

***Тюркан Мубариз гызы Сулейманова***
*Азербайджанский Государственный Педагогический Университет*

# МОНИТОРИНГ И ЕГО РОЛЬ В УПРАВЛЕНИИ КАЧЕСТВОМ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА

***Ismet Mammad Mammadova***
*associate professor at Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

***Turkan Mubariz Suleymanova***
*Azerbaijan State Pedagogical University*

# .MONITORING AND ITS ROLE IN MANAGING THE QUALITY OF THE EDUCATIONAL PROCESS

**Xülasə.** Müasir dövrümüzdə təhsil ən çox müzakirə edilən məsələlərdən biridir. Təhsilin keyfiyyətinin artırılması yolunda müxtəlif geniş addımlar atılır. Güclü rəqabət mühitində yaşadığımıza görə təhsil müəssisələrini bir-birindən fərqləndirən başlıca amillərdən biri onların verdiyi təhsilin keyfiyyəti ola bilər. Təhsil müəssisələrinin təhsildə keyfiyyətə daha çox müvəffəq olması üçün bu prosesdə əsaslı şəkildə iştirak edən kollektivə sahib olmalıdır. Hər bir təhsil müəssisəsi üçün keyfiyyətə nail olmaq bir amal olmalıdır. Keyfiyyəti isə daim təkmilləşdirilən metodlarla idarə etmək lazımdır. Çünki hər bir müəssisə keyfiyyətli fəaliyyət üçün səy göstərməlidir ki, uzunmüddətli rəqabətə tab gətirə və gələcək inkişafını təmin edə bilsin.
***Açar sözlər:*** *təhsil müəssisəsi, keyfiyyət, monitorinq, idarəetmə, qiymətləndirmə*

**Резюме.** Образование – одна из самых обсуждаемых тем в наше время. Для улучшения качества образования предпринимаются различные широкие шаги. Поскольку мы живем в высококонкурентной среде, одним из основных факторов, отличающих учебные заведения друг от друга, может быть качество предоставляемого ими образования. Следовательно, для того чтобы образовательные учреждения были более успешными в качественном образовании, они должны иметь кадры, принципиально вовлеченные в этот процесс. Достижение качества должно стать делом каждого образовательного учреждения. Качеством следует управлять с помощью постоянно совершенствующихся методов. Потому что каждое образовательное учреждение должно стремиться к качественной деятельности, чтобы выдержать долгосрочную конкуренцию и обеспечить свое дальнейшее развитие.
***Ключевые слова:*** *образовательное учреждение, качество, мониторинг, управление, оценивание*

*İsmət Məmməd qızı Məmmədova, Türkan Mübariz qızı Süleymanova*

**Summary.** Education is one of the most discussed topics in our time. Various extensive steps are being taken to improve the quality of education. Since we live in a highly competitive environment, one of the main factors that differentiates educational institutions from each other can be the quality of education they provide. Therefore, for educational institutions to be more successful in providing quality education, they must have staff fundamentally involved in this process. Achieving quality should be the responsibility of every educational institution. Quality should be managed through continually improving methods. Because every educational institution must strive for quality activities in order to withstand long-term competition and ensure its further development.

***Keywords:*** *educational institution, quality, monitoring, management, assessment*

Təhsilin keyfiyyətinin idarə edilməsi məsələsi XX əsrin 90-cı illərinə təsadüf edir. Bu özü təhsil məqsədlərinin mürəkkəbliyi və təhsil paradiqmasında baş verən dəyişikliklərlə bağlıdır. Keyfiyyətin idarə edilməsi məsələlərində ümumilikdə idarəetmənin üç mühüm elementi qeyd olunur: subyekti, obyekti və təsir mexanizmləri. İdarə etmənin obyektini təhsildə tədris prosesi təşkil edir. İdarə etmənin subyektini təhsildə rəhbər işçilər, müəllimlər, şagirdlər və s. təşkil edir. İdarə etmədə təsir mexanizmlərini isə motivasiya, idarəetmənin təşkili, idarəetmədə nəzarət, müəyyən qərarların qəbulu, tədbirlərin hazırlanması və həyata keçirilməsi təşkil edir. Keyfiyyətin effektiv idarə ediləsini təmin edən alətlər sırasında monitorinq aparıcı yer tutur. Təhsil müəssisələrində tədris fəaliyyətinin mürəkkəbliyi təhsilin keyfiyyətini nəzarəti daha da əhəmiyyətli edir. Xüsusilə vurğulamalıyıq ki, təhsilin keyfiyyətinə nəzarət sistemini bütöv bir halda reallaşdırma çətin bir prosesdir. O, müəssisə rəhbərliyinin, müəllimlərin və şagirdlərin müvafiq fəaliyyətlərindən asılıdır. Təhsil müəssisələrinin keyfiyyətinin monitorinqi və idarə olunması müəssisənin rəhbərliyi tərəfindən öz səlahiyyətlərinə uyğun olaraq müxtəlif səviyyələrdə keçirilə bilər. Təlim prosesinin subyektlərinin fəaliyyətinin nəticəsi keyfiyyətin artırılması istiqamətində istifadə olunan əsas istinad nöqtəsidir. Xüsusilə qeyd etmək lazımdır ki, şagirdlərin fəaliyyətinin monitorinqi zamanı müəllimlərin həmin prosesə cəlb olunması zəruri hesab olunur. Müəllimlərin hər biri tədris prosesinin keyfiyyətli tədris-metodiki təminata, tədris prosesinin təkmilləşdirilməsi üzrə idarəetmə qərarlarının keyfiyyətlə həyata keçirilməsinə, şagirdlərə pedaqoji təsirin daha da yaxşılaşdırılmasına, şagirdlərin fənlərə qarşı marağının daha da artırılmasına müəllimlər öz töhfələrini verə bilərlər.

Təhsil müəssisəsində səərəli təhsil keyfiyyətinin idarə edilməsi sistemini qurmaq üçün şagirdlərin bilik və təlim keyiyyətinin monitoriqindən istifadə edilir. Təhsilin keyfiyyətinin idarə edilməsi planlaşdırma, monitorinq, keyfiyyətin təmin edilməsi və təkmilləşdirilməsi yolu ilə nəzərdə tutulmuş keyfiyyət məqsədlərinə nail olmağa yönəlmiş idarəetmənin bir hissəsidir. İstənilən elm sahəsində işin səmərəliliyinə və inkişafına yalnız kəmiyyət cəhətdən deyil, keyfiyyət cəhətdən də yanaşmaq lazımdır. Ümumiyyətlə, mövcud təhsil keyfiyyətinin təkmilləşdirilməsinə bir sıra xüsusi məqamlar təsir göstərir, məsələn, elmi-texniki inkişaf, sosial və təşkilati dəyişikliklər. Dəyişən dövrün tələblərinə cavab vermək, effektiv və həvəsləndirici təhsil mühitini təmin etmək zərurəti, yüksək keyfiyyətli nəticələr əldə etmək və bu kimi məsələlər keyfiyyətin idarə olunmasına olan tələbi daha da artırmışdır. Bütün təhsil müəssisələrində keyfiyyətin dayanaqlı olması və təkmilləşdirilməsi əsas qayə olmalıdır. Bu məsələ həm müəllimlər, həm valideynlər, həm də rəhbərlik tərəfindən dərk olunmalıdır ki, müsbət nəticə əldə etmək olsun. Təhsildə mütəmadi monitorinqlərin aparılması şagirdləri, müəllimləri, valideynləri və təhsildə maraqlı olan tərəfləri keyfiyyətin təmin edilməsinə və mövcud nəticələrin daha da yaxşılaşdırılmasına istiqamətlənmiş planlı və daimi prosesə sövq edir.

İqtisadi artımın, məlumat əlçatanlığının və qloballaşmanın bu qədər sürətlə getdiyi bir şəraitdə təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı geniş miqyaslı müzakirələr gedir. İstər ümumtəhsil pilləsində, istərsə də təhsilin digər pillələrində bu məsələ son dönəmlər öz aktuallığını saxlamaqda davam edir. Təsəvvür edək ki, bir ölkənin ümumtəhsil pilləsində mövcud olan bütün məktəblər mütərəqqi və son texnologiyalarla əhatə olunmuş məktəblərdəndir, amma ali

təhsil müəssisələri üçün bu fikri söyləmək olmur. Biz o zaman bir şəxsiyyətin tam yetişib formalaşmasından söz edə bilmərik. Yəni, belə qənaətə gəlirik ki, təhsilin keyfiyyəti bir-birindən asılı olan bir prosesdir. Təhsildə mütəmadi şəkildə aparılan monitorinqlərin məqsədi şagirdlərin ümumi nailiyyətlərinin yaxşılaşdırmaqla keyfiyyəti təkmilləşdirmək, aktiv olaraq bu onu göstərir ki, keyfiyyətli təhsil məhz müsbət nəticələrlə bağlıdır. Nəticə öyrənmənin yekun nümunəsidir də deyə bilərik. Müasir dövrdə təhsilin keyfiyyətin bilik, bacarıq və səriştə ilə vəhdət halında nümayiş olunan öyrənmə nəticəsi kimi də dəyərləndirə bilərik.

Hər bir rəhbər üçün rəhbərlik etdiyi müəssisənin kənar qurumlar tərəfindən müsbət dəyərləndirilməsi əhəmiyyətlidir. Bu dolayı olaraq rəhbərliyin səriştəsinin də dəyərləndirilməsidir. Bu baxımdan monitorinq idarəetmə nəzəriyyəsində idarəetmənin ən əhəmiyyətli həlqələrində biri hesab olunur. Bəzən rəhbərliyin fəaliyyətinə olan davamlı müşahidə nəzarət və monitorinq anlayışlarının eyniləşdirilməsinə gətirib çıxarır, lakin aydınlıq gətirmək lazımdır ki, nəzarətin mahiyyəti nəticənin qiymətləndirilməsi olduğu halda monitorinqin mahiyyəti prosesin qiymətləndirilməsidir. Monitorinqin idarəetmə ilə üzvi surətdə bağlı olması bütün təhsil işçilərinə agahdır. Məktəb sistemində monitorinqlərin aparılması bu və ya digər şəkildə bütün dövrlərdə mövcud olmuşdur. Belə ki, şagirdlərin biliklərinin yoxlanılması, müəllimlərin dərslərində metodistlərin müşahidəsi və tövsiyələri və s. Lakin təcrübə onu göstərir ki, ənənəvi şəkildə aparılmış monitorinqlər bu gün kifayət qədər özünü doğrultmur, çünki onlar daha çox epizodik xarakter daşıyır və nəticələrə təsir edən amillərin aşkar edilməsinə o qədər də müvəffəq olmurdu. Müasir dövrdə aparılan monitorinqlər hesabına isə tədrisin uyğunluq dərəcəsini, məktəbdə tədris prosesinin təşkilinin faktiki vəziyyətini müəyyən etməklə mənfi hadisələrin inkişafının qarşısını almaq üçün tövsiyələr verməyə imkan verir. Monitorinq nəticəsində əldə edilmiş məlumatlar təhsil müəssisəsinin gələcək inkişafının proqnozlaşdırmasında, yəni yaxın və uzaq hədəflərinin müəyyən edilməsində faydalı və əsas rol oynayır. Sözsüz deyə bilər ki, monitorinqlərin nəticələri təlimin məzmununu düzəltməyə, müəyyən idarəetmə hərəkətlərinin qanuniliyini əsaslandırmağa imkan verir. Yəni təhsilin keyfiyyətinin monitorinqi məktəb idarəçiliyinin səmərəliliyini yüksəldən əsas amillərdən hesab olunur.

Demək olar ki, həmişə məktəbin təkminləşdirilməsində rəhbər şəxsin rolu öz əhəmiyyətini saxlamışdır. Təcrübə göstərir ki, yaxşı idarəetmə hər şeydən əvvəl həmin sahə haqqında olan biliklərdən asılıdır. İdarəetmədə uğurlu olmağın digər şərti məktəbdə baş verən hadisələrin hər birindən agah olmaqdır. İdarəetmədə diqqət edilməli məqamlardan biri də məktəbin məqsədini diqqət mərkəzində saxlamaqla fəaliyyət göstərməkdir. Bilirik ki, məktəbin əsas missiyası təhsil alanlarda müəyyən bilik və bacarıqlar formaaşdırmaqla onları həyata hazırlmaqdır, bu istiqamətdə də rəhbərlərin də əsas missiyası müəllimlərin bu işdə səmərəli fəaliyyət göstərməsinə imkan yaratmaqdır. Rəhbərlərin strateji planlaşdırması vacib hesab olunur və məktəbin fəaliyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir. Ümumiyyətlə, təhsilin planlaşdırılması şagirdlərin təlim nəticələrinin artırılmasına, həmçinin hər hansı dəyişiklikləri sərrast idarə etmək üçün məktəbin potensialının gücləndirilməsinə öz faydasını verməyə yönəlmişdir. Məhz çevik dəyişikliklərin aparılması potensialına sahib olmaq üçün məktəb rəhbəri öz idarəetmə fəaliyyətində mütəmadi monitorinqlər apararaq təhsil dəyişikliklərinə tez adaptasiya ola biləcək idarəetmə strukturlarını yaratmalı, idarəetmə strategiyalarını məktəbin vizyon və missiyasına uyğun planlaşdımalıdır.

Bəzi tədqiqatçılar qeyd edirlər ki, təhsildə keyfiyyətin idarə olunması üçün ümumi şəkildə təhsilin düzgün işləməsi üçün və davamlı, o cümlədən dayanıqlı inkişaf üçün optimal şərait yaradılmalıdır. Təhsilin keyfiyyətinin monitorinqi zaman keçdikcə mövcud sistemin dinamikasını müəyyən edə bilən prosedurlar toplusunu əhatə edə bilir. Təhsildə keyfiyyətin monitorinqini alqoritmə bənzətmək olar, proses dövrü olaraq təkrarlanır və boşluqlar standartlara uyğunlaşana qədər proses davam edir. Sonda nəticə standarta uyğundursa bu zaman prosesi uğurlu hesab edə bilərik.

Monitorinqi təhsildə, o cümlədən də digər sahələrdə vaxtında və keyfiyyətli məlumat əldə etməklə fəaliyyətin idarə olunmasını təmin edən bir vasitə kimi də qiymətləndirmə bilərik.

O cümlədən xüsusilə qeyd etmək lazımdır ki, keyfiyyət ancaq yaxşı idarə olunan və mütəşəkkil bir qurumda yarana bilər. Bu onu deməyə əsas verir ki, keyfiyyətə təsir edən amillərdən biri də əməkdaşlıq bacarığı, komandalarda işləmək və liderlik sənətidir. Keyfiyyətin inkişafında və idarə olunmasında menecerin də xüsusi rolu var. İstənilən müəssisədə menecerin funksiyasına aşağıdakılar aid ola bilər.

– Keyfiyyətin yaxşılaşdırılması prosesi haqqında aydın təsəvvürə malik olmaq;

– Şagirdin ehtiyaclarının müəssisənin diqqət mərkəzində olmasını təmin etmək;

– Problemlər yarandıqda sübut olmadan başqalarını günahlandırmamaq;

– Müəssisə daxilində yeniliklər tətbiq etmək;

– Müəssisə daxilində işçilərin məsuliyyətlərinin dəqiq müəyyən edilməsi və məsuliyyətlərinin maksimum həvalə edilməsini təmin etmək;

– Müəssisə daxilində müvəffəqiyyətin monitorinqi və qiymətləndirilməsi üçün müvafiq mexanizmlərin işlənib hazırlanması;

– Keyfiyyətin qiymətləndirilməsinin əsas metod və prinsiplərindən istifadə etməklə bütün müəllimləri problemlərin həllinə cəlb etmək;

– Konfliktləri və problemləri həll etmək və danışıqlar aparmaq bacarıqlarını inkişaf etdirmək.

Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, məktəbdə keyfiyyətin təmin olunması bir çox amillərdən asılıdır. Təhsilin keyfiyyətin yalnız, fərdin və ya müəssisənin göstəricisi deyildir, o cümlədən də dövlətin yaşam standartını özündə əks etdirən bir məfhumdur. Həmçinin dövlətin təhsil sahəsində həyata keçirdiyi proqramlar insan rifahının yaxşılaşdırılmasına bilavasitə və bilvasitə təsir göstərir.

**Problemin aktuallığı.** Məktəb rəhbərliyi üçün keyfiyyət prioritet məsələ olmalıdır, buna görə də o keyfiyyətin idarə edilməsi və keyfiyyətə nəzarət məsələləri ilə məşğul olmalıdır. Keyfiyyətli təhsilə sahib məktəblərdə şagirdlərin davamlı olaraq ehtiyac və istəkləri müəyyən edilməlidir, o cümlədən məktəbin daxili səyi nəticəsində qarşıya qoyulan məqsədlər davamlı olaraq yerinə yetirilməlidir.

**Problemin elmi yeniliyi** Məktəbin idarə olunmasında ailə-məktəb əməkdaşlığının gücləndirilməsi və şagirdlərin fəaliyyəti sahəsində qərarların qəbulunda valideynlərin iştirakının artırılması tədrisin keyfiyyətli nəticələnməsinə effektiv təsir göstərə bilər. Qərarların qəbulunda valideynlərin geniş iştirak etməsi, fəaliyyətlərin şəffaflığını artırmaqla şagirdlərin faktiki ehtiyaclarına məktəbin və ailənin daha yaxşı aydınlıq gətirməsinə təşviq edir, bu da özülə birgə təhsildə ortaq məsuliyyət hissini yaradır. Çünki şagirdin şəxsiyyət kimi yetişməsində bütün məktəb kollektivi müəyyən dərəcə də iştirak edir, o cümlədən də valideynlər.

**Problemin praktik əhəmiyyəti:** Məqalə bu mövzu ilə məşğul olan müəllimlər, bu ixtisas üzrə təhsil alan bakalavr və magistrantlar, eləcə də elmi tədqiqatçılar üçün faydalı ola bilər.

## Ədəbiyyat:

1. Əsgərov, Ş.O. Biliyin qiymətləndirilməsi. // Təhsil, mədəniyyət, incəsənət. −Bakı, 2002, № 4, −s. 3-11.
2. Hacıyeva, T. Məktəbdaxili qiymətləndirmənin aparılması yolları // Kurikulum, 2009, №2, − s. 11-21.
3. İsmayılov, R. Azərbaycan dili. (4-cü sinif) (dərslik). / R. İsmayılov, S. Abdullayeva, S. Cəfərova [və b.] −Bakı: Altun Kitab, −2019. −227 s.
4. Qardaşov T.B., Cavadov İ.A. Təhsildə monitorinq sistemi və onun növləru. // −Bakı : Təhsil Problemləri İnstitutunun elmi əsərləri, −2004, № 1, −s. 35-38.
5. Boud D., Falchikov N. (2016). Aligning assessment with long-term learning. Assessment & Evaluation in Higher Education, 31, pp. 399-413.

**E-mail:** turkansuleymanova18@gmail.com
**Redaksiyaya daxil olub:** 18.04.2024